Münafiqlərə ən ağır gələn namaz, işa və fəcr namazlarıdır. Əgər onlar bu iki namazda olan savabı bilsəydilər, sürünərək də olsa bu namazlara gələrdilər

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Münafiqlərə ən ağır gələn namaz, işa və fəcr namazlarıdır. Əgər onlar bu iki namazda olan savabı bilsəydilər, sürünərək də olsa bu namazlara gələrdilər. Mən, namazın iqamə edilməsini, sonra da bir kişiyə camaata namaz qıldırmağı əmr etməyi daha sonra isə əllərində odun bağları olan kişilərlə birlikdə gedib, namaza gəlməyənlərin evlərini yandırmağı istədim".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) münafiqlərin, xüsusən də sübh və işa namazlarına gəlmə məsələsində tənbəl olmaları, əgər onlar müsəlmanlarla birlikdə camaatla namaz qılmanın əcr və savabını bilsəydilər, uşaqların əlləri və dizləri üzərində iməklədikləri kimi bu iki namaza gəlmələri barədə xəbər vermişdir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namazın qılınmasını əmr edib sonra öz yerinə bir kişiyə camaata namaz qıldırmağı tapşırmağı sonra isə əllərində odun bağları olan kişilərlə birlikdə gedib, camaat namazına gəlməyənlərin etdikləri günahın böyüküyündən dolayı evlərini yandırmağı istəmişdir. Lakin evlərdə qadınlar, məsum uşaqlar və diğər üzürlü və bu işdə günahı olmayan kimsələrin olması, Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu etməsinə mane olmuşdur.

https://sunnah.global/hadeeth/az/show/3366